# “Könüllü qonaq” təşəbbüsünə yevlaxlı gənclər də qoşulublar

**Ölkə Prezidenti cənab İlham Əliyevin 2020-ci ili “Könüllülər ili” elan etməsi ilə əlaqədar bir sıra rayonlarda başlanan “Könüllü qonaq” təşəbbüsünə yevlaxlı gənclər də qoşulublar.**

Qayğıya xüsusi ehtiyacı olan rayon sakinlərinin evinə baş çəkərək, təmizlik işləri aparan, həyətdə və bağda səliqə-sahman yaradan gənclər ev sahibləri ilə xoş və maraqlı vaxt keçiriblər.

Onlar ölkəmizin digər şəhər və kəndlərində yaşayan gəncləri də #konulluqonaq təşəbbüsünə qoşulmağa çağırıblar.

**“Respublika”.**

Respublika.- 2020.- 28 yanvar.- S.6.